PENETRON

# PENESPLITSEAL




Aşağı yapışqanlıqlı, ikikomponentli inyeksiyaedici poliuretan qətran. Suyun varlığından və ya yoxluğundan asılı olmayaraq, polimerizə olur. Polimerizasiyadan sonra tutumlu, sukeçirməz, kauçukabənzər polimer yaranır.

Təyinatı:

- ✓ 0,15 mm və daha çox açıqlığı olan rütubətli statik və hərəkətli çatların və bənd yerlərinin hermatizasiyası;
- ✓ rütubətin kapilyar sızma yüksəlişinin üfüqi kəsilməsi;
- ✓ müxtəlif materiallardan (kərpic, daş, eyni zamanda da əhəng məhlulundan) istifadə edilmiş tikinti konstruksiyalarında boşluqların doldurulması;
- ✓ deformasiya olmuş bənd yerlərinin doldurulması.

Üstünlükləri:

- ✓ Qətranın aşağı özlülüyü;
- ✓ Metala, betona və bir çox aqressiv mühitə  yaxşı yapışma;
- ✓ Dəniz suyuna və digər aqressiv mühitlərə qarşı davamlılıq;
- ✓ İstismar müddətinin +5°C-dən +150°C-yə qədər olması;
- ✓ A və B komponentlərinin – 1:1 (həcmə müvafiq olaraq) əlverişli nisbəti.

TEXNİKİ XÜSUSİYYƏTLƏRİ:

| GÖSTƏRİCİNİN ADI | DƏYƏRİ | | SINAQ VASİTƏLƏRİ |
|---|---|---|---|
| | A komponenti | B komponenti | |
| QƏTRANIN VƏ KATALİZATORUN GÖSTƏRİCİLƏRİ | | | |
| Sıxlıq , kq/m$^3$ | 990±50 | 1090±50 | QOST 18329 |
| Şərti özlülük, saniyə, çox olmamaqla | 95 (ucluq 4 mm) | 20 (ucluq 4 mm) | QOST 8420 |

| QƏTRAN QARIŞIMININ GÖSTƏRİCİLƏRİ | | |
|---|---|---|
| Qarışdırılmadan dərhal sonra şərti özlülük, saniyə, çox olmamaqla | 30 (ucluq 4 mm) | QOST 18329 |
| 30 dəqiqə sonra şərti özlülük, saniyə çox olmamaqla | 150 (ucluq 4 mm) | |
| Su ilə qarşılıqlı təsirdən sonra həcmin artması, %, çox olmayaraq | 200 (bir saat sonra azalma müşahidə edilmir) | TU 5775-014-77919831-2016 |
| Bərkimə müddəti, saatdan çox olmayaraq:<br>-Su olmadan<br>-Su ilə | 24<br>4 | |
| **QƏTRAN QARIŞIMININ MÖHKƏMLƏNMƏSİNİN FİZİKİ-MEXANİKİ XÜSUSİYYƏTLƏRİ** | | |
| Dartılma zamanı şərti möhkəmlik, MPa, az olmayaraq | 1,7 | QOST 270 TU 5775-014-77919831-2016 |
| Qırılma zamanı şərti uzanma, %, az olmayaraq | 160 | |
| **ƏLAVƏ XÜSUSİYYƏTLƏR** | | |
| Qablaşdırma | A komponenti – tutumu 20 kq.<br>B komponenti – tutumu 22 kq. | |
| Saxlama və çatdırılma şərtləri | +5°C-dən +25°C-yə qədər temperaturda quru mühitdə saxlamaq olar | |
| Zəmanətli saxlama müddəti | İstehsal edildiyi tarixdən - 24 ay;  zavod qablaşdırmasının hermetikliyinin pozulmaması şərti ilə | |

## İSTİFADƏ ÜÇÜN TƏLİMAT

İş konstruksiya səthinin temperaturu +5° ilə +35°C arasında olduqda yerinə yetirilir.

### Zəminin təmizlənməsi

Calaq və çatlaq yeri nasosun köməkliyi ilə yüksək təzyiqli su ilə yuyulmalıdır.

### Nasosun hazırlanması

“EK-100 M” əl nasosundan, yaxud “EK-200” elektrik nasosundan istifadə edərək qətranla katalizatoru əvvəlcədən qarışdırmaq lazımdır.

İnyeksiyalamadan əvvəl nasosun hidravlik yağla yoxlanılaraq sirkulyasiya rejimində yuyulması aparılmalıdır.

(Məsələn, Mobil HLP -68, yaxud onun analoqu vasitəsilə)

## İnyektorların quraşdırılması

Adətən, QOST 19853 yağsökücülü metal intektorlardan istifadə edilir. Dəliklərin diametri inyektorların diametrində 1-2 mm çox olmalıdır (məsələn, 10mm diametri olan inyektorda dəliyin diametri 11-12 mm müəyyən edilir).

✓ Rütubətin kapilyar sızmasının yüksəlişi: bir-birindən 100–150 m aralıqda bir və ya iki cərgə bucaq altında dəlikləri elə açmaq lazımdır ki, hörgü elementləri arasında (kərpic, daş və s.) nə qədər mümkündürsə, daha çox dəlik kəsişsin; dəliklərin dərinliyi gözəyarı bir şəkildə konstruksiyanın qalınlığının 2/3-si qədər olmalıdır.

✓ Çatların və bənd yerlərinin betonlanması: təzyiqlə doldurulması üçün zəmində 45° bucaq altında dəliklərin açılması; deliklər arasında məsafə və çatın, bənd yerinin kənarından olan məsafə konstruksiyanın ½-ni təşkil etməlidir. Şaquli və tavan zəminlərdə qətranın axmasının qarşısının alınması üçün çatın ağız hissəsini 25x25 ölçüdə kanal açmaq və onu “Penecrete”, yaxud “Waterplug” qarışımı ilə doldurmaq lazımdır.

✓ İşlər başa çatdırıldıqdan sonra dəliklər sıxılmış hava vasitəsilə qazma zamanı yaranan qalıqlardan təmizlənməli və qıraq (son) inyektoru quraşdırılmalıdır.

## Qətranın hazırlanması

Qətran məhlulunun və katalizatorun hazırlanma temperaturu +17°C olmalıdır, çünki temperaturun aşağı düşməsi zamanı onların özlülük dərəcəsi artır. Qətran elə bir kəmiyyətdə hazırlanmalıdır ki, 30 dəqiqə ərzində işlədilib bitirilə bilsin.

✓ A:B komponentləri 1:1 nisbətində həcmə görə qarışdırılmalıdır.

✓ 2 dəqiqədən az olmayaraq aşağı sürətli drellə (dəqiqədə 300 dövriyyə) qarışdırmaq lazımdır.

## İNYEKSİYA İŞLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ

✓ Şaquli çatların qətran məhlulu ilə inyeksiyalanmasını aşağıdan yuxarıya doğru müntəzəm təzyiqlə doldurma ilə həyata keçirmək lazımdır.

✓ İnyeksiyalamanı təzyiqin yüksəlməsi baş verənə, yaxud qətran qarışımının digər dəlikdən axmasına qədər aparmaq lazımdır.

✓ Növbəti inyektoru quraşdırmaq və inyeksiyalama prosesini davam etdirmək lazımdır.

- ✓ Qətran qarışımının özlülüyünün artması zamanı nasosu həlledici vasitəsilə (məsələn, 646 QOST 18188 həlledicisi) yumaq və qətranın yeni porsiyasını hazırlamaq lazımdır.
- ✓ Əsas inyeksiyalamadan sonra polimerizasiya baş verməmişdən əvvəl artıq qətranla doldurulmuş inyektorlarla əlavə olaraq inyeksiyalama aparılmalıdır.
- ✓ İnyektorların çıxarılması zərurəti yarandıqda dəliklərin ağzı “Penecrete” harç qarışımı ilə doldurulmalıdır.

## NASOSUN TƏMİZLƏNMƏSİ

Nasos və xortumları əvvəlcə həlledici ilə (məsələn, kisilol, yaxud 646 QOST 18188 həlledicisi ilə) yüksək təzyiq altında yumaq, sonra hidravlik yağla (məsələn, Mobil HLP-68, yaxud onun analoqu) təmizləmək lazımdır. Bərkimiş qətranı mexaniki yollarla təmizləmək tələb olunur.

## TƏHLÜKƏSİZLİK QAYDALARI

Rezin  əlcəklərdən, pambıq əlcəklərdən, qoruyucu eynəklərdən, qalın parçadan xüsusi iş geyimlərindən, çəkmələrdən istifadə etmək tövsiyə edilir. Qarışımın dəriyə və ya gözlərə düşdüyü təqdirdə dərhal həkimə müraciət olunmalıdır.